# KÖRPƏLƏRİN ANA SÜDÜ İLƏ QİDALANDIRILMASI

*Sebine Mirzeyeva*[1]

Ana südünün körpələr üçün nə qədər əhəmiyyətli bir qida maddəsi olduğu hər birimizə məlumdur. İnsan həyatının ilk aylarında ana südü əsas və misilsiz bir başlanğıcdır. Süd əmməyin uşağın rəğbət və sevgisinə tə'siri olduğu üçün südlərin ən üstünü ana südüdür. Ana Allahtəalanın qadına bəxş etdiyi analıq təbiəti ilə uşağa mehribanlıq və sevgi hissləri göstərir. Bu da süd əmməyin ilk günlərindən uşağın duyğu və hisslərində öz əksini tapır. Uşaqla ana arasında məhəbbət telləri süd əmmək yolu ilə möhkəmlənir.

İslam hüququnda körpələrin ana südü ilə bəslənməsi bir hüquqi qayda olaraq Qurani-kərimdə, hədislərdə, Əhli-beytin rəvayət və tövsiyələrində qeyd olunmuşdur. İslam hüquq ədəbiyyatında bu mövzu "ər-Rada "adı altında incələnmişdir.

"Ər-Rada"hüquqi bir termin olaraq körpənin müəyyən bir müddət ərzində ana südü ilə qidalanması və ya bu südün süni yolla içirilməsi (ana ilə uşağın qohumluq əlaqəsi olmasa belə, südü verən qadın"süd anası") kimi qəbul edilir.

Mö'münlərin ağası Əli ibn Əbi Talib (ə) demişdir: «Uşağa verilən südlər içərisində ana südündən daha bərəkətlisi yoxdur». Deməli ana südü uşaqda qorxusuzluq, təhlükəsizlik və rahatlıq yaratmaqdan əlavə elmi baxımdan da cox faydalı yeməkdir. Müasir tibb elminin əldə etdiyi nailiyyətlərə əsasən ana südünün tərkibi körpə doğulduğu gündən etibarən onun böyüməsi ilə birlikdə gündən-günə kimyəvi dəyişikliyə uğrayır. Məsələn: Körpəyə bir ayında lazim olan elementlər nə isə, ana südü onu istehsal edir. Bu da o deməkdir ki, körpənin böyüməsi artıqca südün tərkibindəki qidalı maddələr də artır. Alimlər subut etmişlər ki, ana südü ilə qidalanan körpələr infeksiyon xəstəliklərə yoluxmaq ehtimalına az məruz qalır o, beynin inkişafına, sümüklərin möhkəmliyinə və ümumiyyətlə körpələrin sağlam böyüməsinə çox kömək edir.

---

[1] Azerbaycan Milli Elmler Akademyası Elmi İşçisi.

Bu cür elmi araşdırmaların işığında ana südünün körpələr üçün nə qədər faydalı olmasının isbatından sonra, islam hüququnda ailə xərcləri (nəfəqə) mövzusundan fərqli olaraq "ər-Rada"mövzusu misilsiz olan ana südündən körpələrin məhrum edilməsinin qarşısını alır və bu mövzu bir neçə bəhsə ayrılır.

Tam bir ailə birliyində körpələrin ana südü ilə bəslənməsi.

Normal bir ailə içərisində dünyaya gələn körpənin anası tərəfindən əmizdirilməsi təbiidir. Bu körpənin haqqı olduğu kimi, ananın da analıq haqqıdır. Ana öz südü ilə körpəsini bəslədikdə qürur hissi keçirir, körpə də bu nəvazişi hiss edir. O, həyatda artıq kiməsə gərək olduğunu dərk edir. Bu da körpənin psixoloji bə ruhi cəhətdən sağlam ingişafına təkan verir. Lakin elə hallar da olur ki, ana öz körpəsini əmizdirməkdən imtina edir. Belə br halda körpənin himayəsi mövqeyindən anaya qarşı hüquqi bir məsuliyyət vardırmı. Və gözlənilmədən belə bir hal olsa körpənin hüguqları necə qorunmalıdır.

Qeyd etdiyimiz kimi ana südünün tərkibi elə bir elementlərlə zəngindirki, onu heç bir süni qida əvəz etmir. Bunu dərk edən ana körpəni süddən məhrum edə bilməz. Hüquq qaydalarından əlavə bu dinimizdə də xoş qarşılanmamışdır və analar bu hərəkətlərinə görə Allah yanında da cavabdeh olduqları billdirilmişdir.[2]

Bu mövzu haqqında bir sıra ixtilaflar da vardır.

Əbu Hənifə ananın körpəsini əmizdirməyə məcbur olmadığını deyir. Uşağı əmizdirməkdən imtina edən ana hakimin qərarı ilə də məcbur edilə bilməz.

Maliki məzhəbinə görə isə ana bəzi istisnalar olmaq şərtilə körpəni əmizdirməyə məcdurdur. Hakimin qərarı ilə də körpəni əmizdirməyə məcbur edilə bilər, ancaq onun ailə üzvlərindən körpələrini əmizdirməyənlər varsa Hənəfi məzhəbində olduğu kimi ata süd anası tutmağa məcburdur.[3]

---

[2] Özsoylu, Ana südünün üstünlükləri, s, 3-11
[3] Təntəvi, əl- Əhvalu-ş şəxsiyyə, s. 442.

Digər məzhəblərdə isə ananın körpəni əmizdirməsi həm hüquqi həm də dini bir vəzifədir.[4] Ana bu kimi şərtlər olduqda

1. Körpənin öz anasından başqa heç kəsdən süd əmməməsi.
2. Körpəni süd ilə bəsləyəcək süd anasının tapılmaması.
3. Atanın süd anası tutmağa maddi imkanı nın olmaması.

körpəni əmizdirməkdən imtina edə bilməz. Yox əgər bu kimi halları da nəzərə almırsa, hakim onu bu işə məcbur etməyəcəkdir. Ata da belə bir vəziyyətdə süd anası tutmaq məcburiyyətindədir.[5]

Boşanmış ailələrdə körpənin ana südü ilə qidalanması.

Hz. Peyğəmbər (ə.s) demişdir: Allah-təalanın xoşlamadığı əməl boşanmadır.

İmam Cəfəri Sadiq də (ə) bu haqqda demişdir: Həqiqətən böyük və qüdrətli olan Allah gəlin olan evi sevir, boşanma olmuş evə isə nifrət edir. Allah yanında boşanmadan nifrətli bir şey yoxdur.[6]

Boşanmış ailələrdə ata və ana bir-birinə yad insanlardır. Lakin ananin körpəni əmizdirmək hüququ vardır. Ailənin dağılması onu bu haqqdan kənar edə bilməz.

Amma ananin vəziyyəti ailədə boşanmadan sonra, əvvəlki kimi deyildir. Ailə tam olanda ana övladları, əri, evi üçün çalışır, ailədə hər bir şeyin qaydada olmasını tənzimləyir və bilir ki, onları hüquqi bir bağ bağlayır. Lakin boşanmadan sonra ailədə bu sabitlik dəyişir, ana uşaqlara və ataya nisbətən üçüçncü şəxs kimi olur və bu da anaya digər başqa haqqları verir. Boşanmadan sonra hakimin qərarı ilə ana körpəni süd ilə bəsləməyə məcbur edilməyəcəkdir, ana öz razılığı ilə körpəni süd ilə bəsləyəcək və ata bu işə mane olmayacaqdır. Ana istər öz razılığı ilə, istərsə də hakimin qərarı ilə uşağı əmizdirirsə müəyyən bir pul miqdarına haqq qazqnır. Ata isə bu xərcləri ödəmək məcburiyyətindədir.

Əgər ana ”Rici-talaq” ilə boşanıbsa(yəni yenidən ailə qurmaq ehtimalı var) və ailə yenidən qurqlubsa ananın xərc tələb etməsi düzgün deyildir.

---

[4] Aaəvi, Haşiyə,Vic, s, 206,207s
[5] Karaman,Hayrəddin, Ana Hatlarıyla İslam Hüququ,I,344.
[6] Əl-Kafi 6: 54-3 *Sülh istəyən dadını boşamağı bəyənilməməsi*.

Bir dəfəlik yəni "Bain-talaq" ilə boşanan ailələrə gəlincə isə Hənəfi məzhəbinin fikrincə ananin xərc istəməyə haqqı çata da bilər, çatmaya da. Onu da qeyd edək ki, Misir məhkəmələrində ikinci fikri tətbiq edirlər.[7]

Bildiyimiz kimi hər bir körpə öz anasının südü qidalansa daha yaxşı olar, boşandıqdan sonra analar öz körpələrini könüllü olaraq əmizdirirsələr və bu əmizdirmənin də müqabilində istənilən haqq müəyyən bir miqdarı keçməməlidir. Necə ki, atanın aüd anasıilə razilaşdığı qiymətdən ana artıq qiymət istəyə bilməz. Əks təqdir də ata ziyan çəkmiş olur. Buna baxmayaraq ata bu işi anaya zorla məcbur etdirə bilməz. Bə bu məsələ ilə bağlı bir problem yaranarsa hakimə müraciət edilməlidir və məhkəmə də müəyyən bir qərar verməlidir. Bə'zən elə hallarda olur ki, ana öz körpəsini könüllü əmizdirir və heç bir xərc tələb etmir. Lakin ananın heç bir xərc tələb etməməsinə baxmayaraq ata onların bütün məsrəflərini ödəməlidir.

Qurani-Kərimdə də bu haqqda deyd olunmuşdur.

Analar (istər başanmış, istər boşanmamış olsunlar) uşaqlarını əmizdirmə müddətini tamamlatmaq istəyən(atalar) üçün tam iki il əmizdirsinlər. Anaların yeməyi və geyimi öz qüvvəsi dairəsində (uşağın) atasının üzərinə düşür. Heç kəs gücü çatdığından artıq yüklənməz. Nə bir ana nə də bir ata uşağına görə zərər çəkməsin! (ata öləndən sonra) Bu vəzifə həmin qaydada varisin üzərinə düşür. Əgər ata və ana öz aralarında məsləhətləşib uşağı (iki ildən tez)süddən kəsmək qərarına gəlsələr ikisinə də heç bir günah olmaz. Əgər siz uşağınızı (süd anasına) əmizdirmək istəyirsinizsə onun zəhmət haqqını müəyyən olunmuş qayda üzrə (şəriətə müvafiq) ödəsəniz yenə də sizə günah sayılmaz. Allahdan qorxun və bilin ki, Alah həqiqətən sizin nə etdiyinizi görəndir.[8]

Körpəyə süd anası tutmağın hüquqi nəticələri.

Ana südünün az olması, anada xəstəliyin olması, boşanma, ananın ölümü kimi səbəblər ucbatından ananın körpəyə süd verə bilmədiyi halda ata süd anası tutmaq məcburiyyətindədir. Ata süd anası tutduqda onunla razılaşacağı qiymət hər iki tərəfin razılığı ilə bir olmalıdır. Əgər

---

[7] Təntəvi, əl-Əhvalü-ş şəxsiyyə, s, 440-441.
[8] əl-Bəqərə, (2), 233.

süd anası körpəni razılaşmadan əvvəl əmizdiribsə ata bunu xərci verəndə nəzərə almalıdır.

Körpəyə süd anası tutmaqla ananın körpə üzərindəki haqqları eyni ilə qalır, yəni onun tərbiyəsi və böyüməsi ilə ana məşğul olur. Süd anası körpəni yedizdirmə vaxtı gələcək, əgər müqavilədə gecəni də körpəni körpəylə keçirməyə razılaşıbsa orada gecələyəcəkdir. Süd anasının xərclərini ata ödəməlidir. Əgər atanın imkanı yoxdursa, körpənin şəxsi mirasından da ödəmək olar. Bu da mümkün deyilsə, ananın imkanı varsa o ödəyər. Ata və ananin imkanı olmadığı halda, körpənin xərclərini qəyyumu ödəməlidir. Ata öldüyü halda da məsuliyyət himayədarliq haqqi olanin üzərinə düşər.

Körpənin doğma anası körpəyə süd verməkdən imtina etdikdən sonra ata məcbur olaraq süd anası tutur və bu süd anası körpə üçün ikinci ana sayılır. Onun övladları ilə körpə süd bacı - qardaşları olur. Necə ki, bacı qardaşlar arasında evlənmə bağları olmur, eləcə də süd qardaşları arasnda evlilik olmur. Süd anasının əri isə körpəyə süd atası sayılır. Qurani-Kərimdə də bu haqqda deyilir: 'Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları(ögey qızları) ilə evlənmək haram edildi..."[9]

Süd anası seçdikdə bir sıra xususiyyətləri nəzərə alınmamalıdır.

A) süd anası fiziki cəhətdən sağlam olmalıdır. Peyğəmbər (əs) zinakar və məcnun qadının südündən çəkinməyə əmr edib buyurmuşdur.»[10] Uşaqlarınızı zinəkar və məcnun qadının südündən gözləyin, çünki, süd keçici olur». Axmaq qadınları süd vermək üçün dayə tutmayın. Çünki uşaq həmin süd ilə böyüyəcək. «İmam Muhamməd Baqir demişdir: Həzrəti əli deyərdi ki, axmaq qadını dayə tutmayın. Çünki, süd təbiətə və xasiyyətə üstün gəlir.

B) Süd anası gözəl xasiyyətli və əxlaqlı olmalıdır. Hz. Əli (ə) demişdir: «Baxın övladınıza kim süd verir. Çünki, uşaq onun südü ilə

---

[9] Nisa(4) 23.
[10] İslamda uşaq tərbiyəsi,Məkarimul əxlaq, 237.

inkişaf edəcək. Demək süd verən qdının cinsi uşağın fiziki və ruhi inkişafına təsir edir. Əhli-beyt süd verən qadın seçdikdə malik olduqları sifətlərə dair bir neçə rəvayətləri də nəzərə çatdırır. İmam Məhəmməd Baqir (ə) demişdir. Uşağınıza gözəl, pak və təmiz dayə tutun. Özünüzü çirkin qadından gözləyin. Çünki süd keçici olur.[11] İmam Cəfəri Sadiq Hilal oğlu Abbdullahın məcusi (atəspərəst) qadını süd vermək üçün dayə tutmaq olarmı-sualına cavab verərək demişdir: «Məcusini yox, kitab əhlini olar.»

Qənaətimizə görə istər ailə birliyində istər boşanmış ailələrdə dünyaya gələn körpələr ana südü ilə qidalanmalıdır. Çünki burada ana uşağı bağrına basıb bəsləyir. Ona ardıcıl rəğbət və sevgisini, məhəbbət və ğayğısını göstərir. Bu barədə psixologiya alimi Luiz Kablan deyir: "Doğurdan da ömrünün biriinci və ikinci ilində anasının qaynayıb-coşan, həyat verən məhəbbət və mərhəməti ilə bəslənən uşaq əmin-amanlıq, xatircəmlik içində olur. Adətən sıxıntı və ya qorxu hissləri keçiririlir. Beləliklə üç vəya dörd yaşına çatdıqda öz-özünə irələməyə başlayır, rahatlıq, sevgi və mərhəmət hissi duyan uşaq özünə inanır, başqaları ilə yumşaq və gözəl rəftar edir. Bu mərhələdə gələcəkdə rəğbət, sevgi və nitqi ingişafına tə'sir etdiyi üçün uşağa gözəl sözlər demək lazımdır"[12]. Bəzən eyni tarixdə ana olmuş başqa bir qadın, yəni süd anası tapmaq çətin olur bə bunun nəticəsində körpə süni əmziklə qidalanmalı olur. Bu isə yeni doğulmuş körpələrdə mənəvi narahatçılıqdan əlavə, həzm sistemində müəyyən narahatçılıqlar əmələ gətirir. İlmi nöqteyi nəzərdən heç olmasa körpə dörd ay ana südü ilə qidalanmalıdır. Çünki, körpənin daxili orqanları qidanı həzm etməyə dörd aydan sonra uyğunlaşır.

Körpəyə süd anası tutduqda qeyd etdiyimiz kimi onun bütün cəhətlərinə diqqət yetirmək lazımdırki, dünyaya gələn körpə anasından sonra süd anası ilə daha çox ünsiyyətdə olur. Süd anası müsbət xüsusiyyətli bir qadın olarsa o, körpəni fiziki və ruhi cəhətdən sağlam böyüdüb, cəmiyyətə və dövlətə lazımlı bir şəxs kimi yetişdirər.

[11] İslamda uşaq tərbiyəsi, s, 55.
[12] Tibbi uşaq ensiklopediyası, s, 257.